# XIDIR NƏBİ HAQQINDA MƏRASİM NƏĞMƏLƏRİNİN RİTUAL-MİFOLOJİ SEMANTİKASI



*Şakir ALBALIYEV,*
*AMEA Folklor İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent,*

*(Əvvəli ötən saylarımızda)*

2. Nəğmənin əvvəlində Xıdır Nəbi və Xıdır Ellazın (İlyasın) yazla əlaqələndirilməsi ("Bitdi çiçək, oldu yaz") onların bir obraz kimi Xaosu deyil, Kosmosu təmsil etdiklərini, yəni xaosyaradıcı (dünyadağıdıcı) qüvvələr yox, kosmosyaradıcı (dünyaqurucu) güclər olduğunu göstərir.

3. Xıdırın "hayınan" gəlməsi hərfi mənada səs-küyü bildirir, yəni o, hay-küy salaraq gəlir. Bizcə bunun iki mənası var:

Birincisi, Xıdırın hay-küynən gəlməsi onun gəlişinin Kiçik Çillədə olmasına işarədir. Kişik Çillə qışın ən pis vaxtıdır: qar, şaxta, külək, çovğun, boran və s.

İkincisi, bu hay-küy onun gələrkən mindiyi atın ayaqlarının çıxardığı səsə işarədir.

4. Nəğmədə Xızırın mindiyi at "qara day" adlandırılır. Bu, qara rəngdə olan at deməkdir. "Day" atın balasıdır. Bizcə, Xıdırın atının day adlandırılması da zaman mifi ilə bağlıdır. Xıdırın gəlişi yeni ilin ərəfəsini simvollaşdırdığı kimi, onun atı da zamanı simvollaşdırır. Atın balacalığı yeni ilin körpəliyini, hələ doğulmadığını, uşaq olduğunu, yetişmədiyini göstərir. Bu, psixoanalitik baxımdan "bətn" situasiyasıdır. Yeni il bir uşaq kimi hələ köhnə ilin bətnindədir.

5. Xıdırın atının palçığa batması, bizcə, zamanı simvollaşdıran vəziyyətdir. Atın palçığa batması, onun gələ bilməməsini, ləngiməsini göstətir. Belə ehtimal edirik ki, Xıdırın atının ləngiməsi Xıdırın gətirmək istədiyi yazın, yeni ilin bir müddət ləngiyəcəyini göstərir. Çünki hələ qabaqda Kiçik Çillənin ardı ilə gələn Boz ay var. Boz ay isə köhnə ilə aiddir. Deməki, Xızır Kiçik Çillədə gəlsə də, yolda ləngimlidir. Çünki Yazın gəlişinə hələ düz bir ay var. Təsadüfi deyildir ki, Xıdır palçığa batmış atının yanında yuxuya gedir ("Qara day palçığa batdı, Xıdır yanında yatdı").

6. Nəğmənin sonunda uşaqların pay verməyən qadınları bəd dua ilə hədələməsi ("Kim Xıdır payın verməsə, Əri yanında yatmaya") Xıdır kultunun semantikasının üzərinə işıq salır. Ərin öz arvadının yanında yatmaması nəticə etibarilə həmin qadının uşaqsız (qısır) qalacağına, doğmayacağına işarədir. Buradan aydın olur ki, xanımların Xıdır Nəbinin adından pay istəyən uşaqlara pay verməsi rutual-mifoloji baxımdan qarşılıqlı mübadilədir: xanımlar Xıdır Nəbiyə pay verir, o da onlara uşaq payı verir. Bu qənaətimiz S.Qarayevin tədqiqatları ilə təsdiq olunur.

Səfa Qarayev XızırXıdırın bayram gecəsi bərəkət paylamasını psixoanalitik kontekstdə təhil edərək belə bir nəticəyə gəlmişdir ki, bərəkət paylama Xıdırın "fallik gücə sahib olan döllendirici"lik funksiyasının ifadəsidir. Müəllif göstərir ki, bayram gecələrində "döllendirici təbiətin aktuallaşması üçün (evə xeyir-bərəkətin gəlməsi üçün) qapılar açıq qoyulur. Semantik cəhətdən qapıları açıq qoymaq sakral obrazın (Xızırın) öz cinsi gücünü göstərməsi üçün şərait yaratmaq semantikası daşıyır" [12, s. 83]. Gəncə bölgəsindəki nəğməyə daha geniş şəkildə Zəngəzur bölgəsinə aid mətndə rast gəlinir. Nəğmənin sonunda deyilir:

"Çatma çatmıya,
Çatma yerə batmıya.
Hər kəs Xıdıra
ləyaxlı pay verməsə,
Muradına çatmıya.
Belə deermişdər. Bular da gətirif evdə yağdan, baldan nə varsa verərmişdər. Bir qabda da xaşıl bişirərmişdər, qoarmışdar ki, gecə Xıdır gəlif əlin basajax ora. Rəvayətə görə, səhər durumuşdar ki, orda əl var. Nə biləh, özdəri basırmışdar, yoxsa əlimiş" [7, s. 92].



Mətndən iki əsas qənaət hasil olur:

a) Xıdıra pay verməyən qadın "muradına çatmaz". Murad – arzu, istək mənasındadır. Əlbəttə, insanın arzu-istəkləri sonsuzdur. Lakin pay verən qadınlar olduğu üçün burada murad adı altında qadınların arzu-istəkləri nəzərdə tutulur. Gəncə bölgəsindəki nəğməni yada salsaq, onda burada da qadınların arzu-istəklərinin övladla bağlı olduğunu düşünə bilərik.

b) Zəngəzurda Xıdır onun üçün qoyulmuş xəşilə Ağbabadan fərqli olaraq qamçısı ilə toxunmur, əlini basır. Deməki, variantlar genişlənir: paya qamçı toxunmaq və əlini basmaq. Hər ikisi öz izini qoymaq mənasındadır. Xıdır Nəbinin yemək üzərindəki izi onun verilmiş payı qəbul etdiyini göstərir. Bu isə eyni zamanda "paya-pay" adlandıra biləcəyimiz ritual mexanizminin (insanlarla Xıdır Nəbi arasında qarşılıqlı mübadilənin) işə düşməsi deməkdir. İnsanlar Xıdır Nəbiyə pay qoyarkən ürəklərində arzu-istəkləri olur. Əgər Xıdır payı qəbul edirsə, bu o deməkdir ki, Xıdır da ev sahibinə pay verəcəkdir və bu payın nədən ibarət olması ev sahibinin arzusundan asılıdır.

Tarixi Azərbaycanın hazırda qondarma Ermənistan Respublikası adlanan terrorçu və faşist ölkənin işğalı altında qalmış bölgəsi olan Nəbi bayramında uşaqlar nəğmələr oxuyaraq pay toplayırmışlar. Lakin həmin nəğmələr [8, s. 43-44] yuxarıda təqdim etdiyimiz nəğmələrlə eyni olduğu üçün onları ayrıca təhlil etməyə ehtiyac görmürük. İşin elmi nəticə və yenilikləri: Beləliklə, Xıdır Nəbi haqqında nəğmələrin təhlili aşağıdakıları göstərdi:

1. Nəğmələrdə Xıdır və İlyas nəbilərin adları ilə başlanması payın uşaqlar tərəfindən **həmin peyğəmbərlər üçün toplandığını göstərir.**

2. Nəğmələrin əvvəlində Xıdır Nəbi və Xıdır Ellazın (İlyasın) yazla əlaqələndirilməsi ("Bitdi çiçək, oldu yaz") onların bir obraz kimi Xaosu deyil, Kosmosu təmsil etdiklərini, yəni xaosyaradıcı (dünyadağıdıcı) qüvvələr yox, kosmosyaradıcı (dünyaqurucu) güclər olduğunu göstərir.

3. Xıdırın "hayınan" gəlməsi hərfi mənada səs-küyü bildirir, yəni o, hay-küy salaraq gəlir. Bunun iki mənası var: Birincisi, Xıdırın hay-küynən gəlməsi onun gəlişinin Kiçik Çillədə olmasına işarədir. Kişik Çillə qışın ən pis vaxtıdır: qar, şaxta, külək, çovğun, boran və s. İkincisi, bu hay-küy onun gələrkən mindiyi atın ayaqlarının çıxardığı səsə işarədir.

4. Nəğmədə Xızırın mindiyi at "qara day" adlandırılır. Bu, qara rəngdə olan at deməkdir. "Day" atın balasıdır. Bizcə, Xıdırın atının day adlandırılması da zaman mifi ilə bağlıdır. Xıdırın gəlişi yeni ilin ərəfəsinii simvollaşdırdığı kimi, onun atı da zamanı simvollaşdırır. Atın balacalığı yeni ilin körpəliyini, hələ doğulmadığını, uşaq olduğunu, yetişmədiyini göstərir. Bu, psixoanalitik baxımdan "bətn" situasiyasıdır. Yeni il bir uşaq kimi hələ köhnə ilin bətnindədir.

5. Xıdırın atının palçığa batması, bizcə, zamanı simvollaşdıran vəziyyətdir. Atın palçığa batması, onun gələ bilməməsini, ləngiməsini göstərir.

6. Nəğmələrin sonunda uşaqların pay verməyən qadınları bəd dua ilə hədələməsi ("Kim Xıdır payın verməsə, Əri yanında yatmaya") Xıdır kultunun semantikasının üzərinə işıq salır. Ərin öz arvadının yanında yatmaması nəticə etibarilə həmin qadının uşaqsız (qısır) qalacağına, doğmayacağına işarədir. Buradan aydın olur ki, xanımların Xıdır Nəbinin adından pay istəyən uşaqlara pay verməsi rutual-mifoloji baxımdan qarşılıqlı mübadilədir: xanımlar Xıdır Nəbiyə pay verir, o da onlara uşaq payı verir.

İşin nəzəri və praktiki əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti bu işdən bayramlar haqqında aparılacaq başqa tədqiqatlarda nəzəri qaynaq olaraq istifadə imkanları, praktiki əhəmiyyəti isə ali məktəblərdə mərasim folklorunun tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

### ƏDƏBİYYAT

*1. Abdulla, B. Novruz – Azərbaycan xalqının milli bayramıdır B.Abdulla, T.Babayev. Novruz Bayramı Ensiklopediyası. Tərtib edənlər: Bəhlul Abdulla, Tofiq Babayev. – Bakı: Şərq-Qərb, – 2008. – 208 s. 5-26*

*2. Abdullayev, B. Qış və yaz mərasimlərimizdən "Qobustan" toplusu, – 1979, – № 2, – s. 83-86*

*3. Allahverdi R. Təqvim mifləri və Novruz R.Allahverdi. – Bakı: Nurlan, – 2013. – 180 s.*

*4. Azərbaycan folkloru antologiyası, I kitab Toplayanı Ə.Axundov. – Bakı: Azərbaycan CCR EA nəşri, – 1994, – 289 s.*

*5. Azərbaycan folkloru antologiyası. VIII cild. Ağbaba folkloru Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Qurbanov. – Bakı: Səda, – 2003, – 475 s.*

*6. Azərbaycan folkloru antologiyası. IX cild. Gəncəbasar folkloru Tərtib edənlər: H.İsmayılov, R.Quliyeva. – Bakı: Səda, – 2004, – 521 s.*

*7. Azərbaycan folkloru antologiyası. XII cild. Zəngəzur folkloru Toplayanlar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. – Bakı: Səda, – 2005, – 463 s.*

*8. Azərbaycan folkloru antologiyası. XV cild. Dərələyəz folkloru Toplayıb tərtib edənlər: H.Mirzəyev, H.İsmayılov, Ə.Ələkbərli. – Bakı: Səda, – 2006, – 483 s.*

*9. Cəfərzadə, Ə. Unudulmuş əziz günlərimizdən "Azərbaycan" jurnalı, – 2001-ci il, – № 9, – s. 159-177*

*10. Xürrəmqızı, A. Azərbaycan mərasim folkloru (Türk və dünya xalqları filkloru ilə tarixi-müqayisəli araşdırma) A.Xürrəmqızı. – Bakı: Səda, – 2002, – 210 s.*

*11. Qaliboğlu E. Yaradiliş mifləri və Azərbaycan əfsanələri E.Qaliboğlu. – Bakı: Elm və təhsil, 2020, 180 s.*

*12. Qarayev, S. Novruzda yaradıcı cinsi davranışların simvolikası: Xızırın gecələr bərəkət paylaması və papqatmanın psixoanalitik semantikası "Dədə Qorqud" jur., – 2019, – № 4, – s. 78-92*

*13. Naxçıvan folkloru. II cild Tərtib edənlər: M.Cəfərli, Y.Səfərov, R.Babayev. – Naxçıvan: Əcəmi, – 2011, – 486 s.*

*14. Yoloğlu, G. Mövsüm mərasimləri G.Yoloğlu. – Bakı: Xəzər Universitəsi Nəşriyyatı, – 2009. – 218 c.*

*15. Алекперов, А. Исследования по археологии и этнографии Азербайджана / А.Алекперов. – Баку: Издательство АН Азербайджанской ССР, – 1960, – 250 с.*

*16. Садек, Х, Нейрангистан (перевод с персидского, предисловия и комментарии Н.А.Кислякова) // Труды Института Этнографии им. Миклухо-Маклая АН. СССР. – Новая серия, – Том 39, – 1958, – с. 259-336.*

**2021**